Tələbə Təhminə Abbaslının anası çıxış edərək, Xəzər Universitetində yüksək səviyyəli təhsil verildiyinə və tələbələrin belə məzmunlu səfərlərinin təşkilinə görə universitet rəhbərliyinə minnətdarlıq etdi.

*Təzadlar TV*-nin baş redaktor müavini Elçin Məmmədli çıxışında özəl ali təhsil müəssisəsi kimi Xəzər Universitetinin fəaliyyətini yüksək dəyərləndirdi.

Ə. Əmirbəyli Türkiyədən H. İsaxanlı və İ. Xəlilovaya göndərilmiş hədiyyələri onlara təqdim etdi.

Proqramın iştiakçısı olan tələbələr səfərlə bağlı maraqlı təəssüratlarını bölüşdülər və universitet rəhbərliyinə təşəkkürlərini bildirdilər.

Sonda H. İsaxanlı, İ. Xəlilova, universitetin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı və Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva tələbələrə sertifikat təqdim etdilər və xatirə şəkli çəkildi.

Provincial Directorate of Turkish Ministry of Youth and Sports, who spent a lot of effort in organizing the trip to Ankara and Kirshehir, and to the Turkish state officials who admitted the delegation of Khazar University, for the successfully completing the visit.

The founder of Khazar University, chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, made a speech noting the importance of the new exchange program. He mentioned that in the activities of Khazar University to prepare well-rounded graduates, the promotion of students' visits to foreign countries, whether through exchange programs or other relations and partnerships is one of the priorities of the university and is carried out regularly.

Dilbar Abbasli, the mother of student Tahmina Abbasli, spoke and expressed her gratitude to the university administration for providing high-level education at Khazar University and for organizing such useful visits for students.

Elchin Mammadli, deputy editor-in-chief of *Tazadlar TV*, appreciated the activity of Khazar University as a private higher education institution in his speech.

A.Amirbeyli presented the gifts sent from Türkiye to H.Isakhanli and I.Khalilova. The students who participated in the program shared their interesting impressions about the trip and expressed their gratitude to the university administration.

In the end, H.Isakhanli, I.Khalilova, the university's vice-rector for Management and Student Affairs Isakhan Isakhanli and the Dean of the School of Science and Engineering Fakhranda Afandiyeva presented certificates to the students and a memory photo was taken.



# XƏZƏR UNİVERSİTETİNDƏ "SƏNİNLƏYİK, TÜRKİYƏ!" YARDIM KAMPANİYASI

# AID CAMPAIGN "WE ARE WITH YOU, TÜRKIYE!" AT KHAZAR UNIVERSITY

Fevralın 6-da Türkiyənin Kahramanmaraş-Pazarcıkda baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar olaraq həmin gün rektorluqda keçirilən toplantıda qardaş ölkəyə hər cür maddi və mənəvi dəstək göstərilməsi və bununla əlaqədar olaraq universitetdə yardım kampaniyasının həyata keçirilməsi üçün müvafiq təşkilati işlər görüldü və yardım kampaniyasına başlanıldı..

Üniversitənin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor, akademik Hamlet İsaxanlının adından Türkiyənin Azərbaycandakı səfirliyinə başsağlığı məktubu təqdim edildi.

Xəzər Universiteti adından Türkiyəyə 20 min manat həcmində maliyyə yardımı göstərildi.

Üniversitet əməkdaşları və tələbələri arasında keçirilən "Səninləyik, Türkiyə!" yardım kampaniyasında toplanan yardımlar fevralın 13-də Türkiyəyə göndərilmək üçün Mərkəzi Yardım

(*Ardı səh.42-də*)

On February 6, a meeting was held at the rector's office concerning the terrible earthquake that occurred in Kahramanmaraş-Pazarcık, Turkey. The meeting covered, appropriate organizational work to be done to provide all kinds of material and moral support to the fraternal country and regarding this issue, to implement the aid campaign at the university.

A letter of condolence was presented to the Turkish Embassy in Azerbaijan on behalf of the founder of the university, chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli.

Financial aid in the amount of 20,000 manats was provided to Turkey on behalf of Khazar University.

The donations collected in the "Senilayam Turkey!" aid campaign organized among university staff and students on February 13 were delivered

(*To be continued page 42*)



Toplama Məntəqəsinə təhvil verildi.

Universitet əməkdaşları və tələbələri tərəfindən nağd şəkildə pul toplama kompaniyasına başlanıldı və bu iş hələ də davam edir. Toplanan pul vəsaiti bu həftə sonu Ziraat Bankın hesabına yatırılacaq.

Fevralın 9-10-da Tələbə Məclisinin üzvləri (12-13 nəfər) Bakıda fəaliyyət göstərən ATİB-in (Azərbaycan-Türkiyə İş Adamları Birliyi) Yardım Kampaniyasında əşyaların qablaşdırılmasında fəal iştirak ediblər.

Fevralın 11-12-də (şənbə və bazar günləri) universitetin əməkdaşları yardım kampaniyasının təşkilatçılıq işində, fevralın 13-də Karyera Mərkəzinin təşkilatçılığı və Tələbə Məclisinin dəstəyi ilə ilə tələbələrdən ibarət könüllülər komandası Heydər Əliyev İdman Kompleksində - Mərkəzi Yardım Toplama Məntəqəsində qablaşdırma işində yaxından iştirak ediblər.

Fevralın 15-də Türkiyədə zəlzələdən zərərçəkən bölgələrə kömək məqsədi ilə Türkiyə, Azərbaycan və Şimali Kiprdə fəaliyyət göstərən televiziya və radio kanalları vasitəsi ilə keçirilən "Türkiyə Tək Ürək" ortaq canlı yayımında Xəzər Universiteti müəllim, əməkdaş və tələbələrdən toplanmış 34 min TL ianə etmişdir.

to the Central Aid Collection Point to be sent to Türkiye.

A fundraising campaign was started by university staff and students and is still ongoing. The collected funds will be deposited into the account of Ziraat Bank this weekend.

On February 9-10, members of the Student Assembly (12-13 people) took an active part in packing items in the Aid Campaign of ATIB (Azerbaijan-Türkiye Business Association ) operating in Baku.

On February 11-12 (Saturday and Sunday), university employees closely participated in the organization of the aid campaign, and on February 13, with the support of the Career Center and the support of the Student Assembly, a volunteer team of students took part in the packing work at the Heydar Aliyev Sports Complex - Central Aid Collection Point .

"We are with you, Türkiye" aid campaign continues.

On February 15, Khazar University donated TL 34,000 collected from faculty, staff and students through a joint live broadcast of "Türkiye, One Heart", which was carried out on TV and radio channels operating in Türkiye, Azerbaijan and Northern Cyprus, to help the earthquake-hit regions in Türkiye.




Khazar
University







# "HEYDƏR ƏLİYEV FENOMENİ: TARİXİ MİSSİYA VƏ MİLLİ ÖZÜNÜDƏRK İDEYASI" MÖVZUSUNDA ELMİ-PRAKTİK KONFRANS

# A SCIENTIFIC-PRACTICAL CONFERENCE HELD ON "HEYDAR ALIYEV PHENOMENON: HISTORICAL MISSION AND THE IDEA OF NATIONAL SELF- WARENESS"






Fevralın 24-də Xəzər Universitetinin Mərmər salonunda Tarix və arxeologiya departamenti və Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı departamentin müəllimi Söhrab Mustafayevin moderatorluğu ilə "Heydər Əliyev fenomeni: tarixi missiya və milli özünüdərk ideyası" mövzusunda elmi-praktik konfrans keçirildi. Konfransda universitetin rəhbərliyi və əməkdaşları, tələbələr, müxtəlif sahələrdən mütəxəssislər iştirak edirdilər.

Dövlət himninin səslləndirilməsi ilə başlayan tədbir universitetin rektoru dosent İradə Xəlilovanın çıxışı ilə açıldı. Sonra Milli Məclisin üzvü Dr. Rəşad Mahmudov, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, Tarix və arxeologiya departamentinin müdiri t.ü.f.d. Telman Nüsrətoğlu tədbirin ilk hissəsində çıxış etdilər.

Konfransın ikinci hissəsi elmi panellərdən ibarət idi. İlk paneldə Heydər Əliyev mərkəzinin baş mütəxəssisi Nailə Həsənova, Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri s.ü.f.d. Orxan Vəliyev, t.ü.f.d. Bayram Quliyev və f.ü.f.d. Sevinc Qəmbərova, f.ü.f.d. dos. Mehman Həsənli çıxış etdilər və. İkinci paneldə isə AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu və s.ü.f.d. Cavid Vəliyevin çıxışları dinlənildi.

Konfransda Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətindən başqa onun dil, ədəbiyyat, tarix və mədəniyyət sahələrində ölkəmizə, xalqımıza, türk dünyasına qazandırdıqları da geniş şəkildə izah edildi. Tədbirdə Ümummilli Lider haqqında qısa film də nümayiş olundu. Universitetin Kitabxana İnformasiya Mərkəzi tərəfindən kitab sərgisi də təşkil edilmişdi.

On February 24, a scientific-practical conference on "Heydar Aliyev phenomenon: historical mission and the idea of national self-awareness" was held in the Marble Hall of Khazar University, organized by the Department of History and Archeology and the Department of Languages and Literatures and moderated by Sohrab Mustafayev, the lecturer of the department. University administration and employees, students, specialists from various fields participated in the conference.

The event, which began with the singing of the national anthem, was opened by the speech of the rector of the university, associate professor Irada Khalilova. Then the member of the National Assembly Dr. Rashad Mahmudov, the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, the head of the Department of History and Archeology, Ph.D in history Telman Nusratoghlu, spoke in the first part of the event.

The second part of the conference consisted of scientific panels. In the first panel, the chief specialist of the Heydar Aliyev Center, Naila Hasanova, the head of the Department of Political Sciences and Philosophy of Khazar University, Ph.D in politics Orkhan Valiyev, Ph.D. in history Bayram Gulíyev and Ph.D. in philosophy Sevinj Gambarova, Ph.D. in philosophy Mehman Hasanli delivered speeches. In the second panel, correspondent member of ANAS, Tehran Alishanoglu, and Ph.D. in politics Javid Valiyev's speeches were heard.

In addition to the political and state activities of Heydar Aliyev, his contributions in the field of language, literature, history and culture to our country, our people and the Turkic world were widely explained. The event also featured a short film about the national leader. Moreover, a book exhibition was organized by the Library and Information Center of the University.



*Rəşad Mahmudov, Rashad Mahmudov*



*Telman Nüsrətoğlu, Telman Nusratoghlu*



*Orxan Vəliyev, Orkhan Valiyev*



*Nailə Həsənova, Naila Hasanova*



*Sevinc Qəmbərova, Sevinj Gambarova*



*Bayram Quliyev, Bayram Guliyev*




*Mehman Həsənli, Mehman Hasanli*




*Söhrab Mustafayev, Sohrab Mustafayev*

# MEKSİKA SƏFİRİ MARİA VİCTORİA ROMERO CABALLERO "XƏZƏR"DƏ

# MEXICAN AMBASSADOR MARIA VICTORIA ROMERO CABALLERO AT KHAZAR UNIVERSITY



*Maria Victoria Romero Caballero* *Hamlet İsaxanlı* *Hamlet Isakhanli*

Fevralın 20-də Meksika Birləşmiş Ştatlarının Azərbaycanda yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Maria Victoria Romero Caballero ilə görüş keçirilmişdir.

Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, universitetin rektoru İradə Xəlilova, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Orxan Vəliyev, Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva iştirak etmişlər.

Azərbaycan ilə Meksika Birləşmiş Ştatları arasında münasibətlərin əhəmiyyəti haqqında, ikitərəfli əlaqələrin möhkəmləndirilməsi və Meksika təhsil müəssisələri ilə tərəfdaşlıq istiqamətində fikir mübadiləsi aparılmışdır. Qonağa Xəzər Universitetinin təhsil sistemi, əcnəbi tələbələrə təklif etdiyi təqaüdlər, Nailəxanım fondunun təsis etdiyi Nailəxanım təqaüdü haqqında məlumat verilmişdir

Görüşün sonunda səfirə hədiyyə təqdim olunmuşdur.

On February 20, a meeting was held with the newly appointed extraordinary and plenipotentiary ambassador of the United States of Mexico to Azerbaijan, Maria Victoria Romero Caballero.

The founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, the rector of the university Irade Khalilova, the director of Public Relations and Media Alovsat Amirbeyli, the head of the Department of Political Sciences and Philosophy Orkhan Valiyev, the coordinator of the International relations office Fatima Valiyeva took part in the meeting.

Opinions were exchanged on the importance of relations between Azerbaijan and the United States of Mexico, in the direction of fostering bilateral relations and partnership with Mexican educational institutions. The guest was informed about Khazar University's education system, scholarships offered to foreign students, and the Nailekhanim scholarship established by the Nailekhanim Foundation.

At the end of the meeting, a gift was presented to the ambassador.






*Fidel Coloma Grimberg*

## ÇİLİ SƏFİRLİYİNİN MÜVƏQQƏTİ İŞLƏR VƏKİLİ FİDEL COLOMA GRIMBERG "XƏZƏR"DƏ SEMİNAR KEÇİRDİ

Fevralın 21-də Çilinin Azərbaycandakı səfirliyinin Müvəqqəti işlər vəkili Fidel Coloma Grimberg Xəzər Universitetində seminar keçirmişdir.

Müvəqqəti işlər vəkili ilk olaraq universitetin rektoru Dos. İradə Xəlilova tərəfindən qəbul edilmişdir.

Seminarda universitetin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev, departamentin müəllimi Baba Bayramov, Beynəlxalq əlaqələr ofisinin koordinatoru Hüseyn Əliyev və tələbələr iştirak etmişlər.

Seminar Çilinin tarixi, coğrafiyası, mədəniyyəti və s. məsələləri əhatə etmişdir. Təqdimatdan sonra tələbələrin sualları cavablandırılmışdır.

Görüşün sonunda Müvəqqəti işlər vəkilinə hədiyyə təqdim olunmuşdur.

## CHARGÉ D'AFFAIRES OF THE CHILEAN EMBASSY FIDEL COLOMA GRIMBERG HOLDS A SEMINAR AT KHAZAR UNIVERSITY

On February 21, Chargé d'affaires of the Embassy of Chile in Azerbaijan Fidel Coloma Grimberg held a seminar at Khazar University.

The chargé d'affaires was first accepted by the rector of the university, associate professor Irada Khalilova.

In the seminar, Dr. Orkhan Valiyev, the head of the Political Science and Philosophy Department of the university, the lecturer of the department Baba Bayramov, the coordinator of the International Relations office Huseyn Aliyev and the students participated.

The seminar covered history, geography, culture of Chile and other issues. Following the presentation, students' questions were answered.

At the end of the meeting, a gift was presented to the chargé d'affaires.



*Orxan Vəliyev*
*Orkhan Valiyev*

# XƏZƏR UNİVERSİTETİNİN "BREND TƏLƏBƏLƏR"İ



**Günel Ocaqverdiyeva - İqtisadiyyat və menecment fakültəsi; Marketinq, IV kurs**

**Gunel Ojagverdiyeva - School of Economics and Management; Marketing, IV course**



**Ceyran Heydərova - İqtisadiyyat və menecment fakültəsi; Maliyyə, IV kurs**

**Jeyran Heydarova - School of Economics and Management; Finance, IV course**



**Şəfəq Qasımova - İqtisadiyyat və menecment fakültəsi;Maliyyə, IV kurs**

**Shafag Gasimova - School of Economics and Management; Finance, IV course**

*Azedu.az* Təhsil Portalı tələbələr arasında sağlam rəqabətlilik mühiti yaratmaq, fəal gəncləri daha geniş müstəvidə tanıtmaq məqsədilə ekspert komissiyasının hazırladığı meyarlar əsasında hər universitetdən 10 nəfər "Brend tələbə" seçilməsi ilə əlaqədar 22 universitetə müraciət etmişdir. Siyahılar redaksiyaya göndərilib və ictimaiyyətə təqdim olunub.

*AzEdu.az* bildirib ki, ilkin mərhələdə universitetlər tərəfindən təqdim edilən tələbələrin informasiya bazaları portalda yaradılacaq, xüsusi bölmədə yerləşdiriləcək. Onların uğur hekayələri, fərdi bacarıq göstəriciləri gənc nəslə örnək məqsədilə geniş şəkildə təbliğ ediləcək.



**Gülal Hacıməmmədova - Humanitar, təhsil və sosial elmlər fakültəsi; Filologiya (İngilis dili və ədəbiyyatı), IV kurs**

**Gulal Hajimammadova - School of Humanities, Education and Social Sciences;Philology (English language and literature), IV course**



**Əfsanə Dəmirçiyeva - İqtisadiyyat və menecment fakültəsi; Maliyyə, III kurs**

**Afsana Demirchiyeva - School of Economics and Management; Finance, III course**

# "BRAND STUDENTS" OF KHAZAR UNIVERSITY



**Ləman Həşimova - Humanitar, təhsil və sosial elmlər fakültəsi; Filologiya (Azərbaycan dili və ədəbiyyatı), IV kurs**

**Laman Hashimova - School of Humanities, Education and Social Sciences; Philology (Azerbaijan language and literature), IV course**

Azedu Education Portal applied to 22 universities to select 10 "Brand students" from each university based on the criteria prepared by the expert commission in order to create a healthy competitive environment among students and promote active young people on a wider level.The lists were sent to the editors and made available to the public.

AzEdu.az reported that the information databases of students provided by the universities at the initial stage will be created on the portal and will be placed in a special section. Their success stories and individual skills will be widely promoted as an example to the younger generation.



**Almaz Cəfərova - Təbiət elmləri və mühəndislik fakültəsi; Kompüter mühəndisliyi, IV kurs**

**Almaz Jafarova - School of Science and Engineering; Computer engineering, IV course**



**Afət Əhmədova - Təbiət elmləri və mühəndislik fakültəsi; Kimya və biologiya müəllimliyi, III kurs**

**Afat Ahmadova - School of Natural Sciences and Engineering; Chemistry and biology teaching , III course**



**Zeynal Mərdanlı - Təbiət elmləri və mühəndislik fakültəsi; Kompüter mühəndisliyi, II kurs**

**Zeynal Mardanli - School of Science and Engineering; Computer engineering, II course**



**Elyana Hüseynova - Təbiət elmləri və mühəndislik fakültəsi; Kompüter elmləri, IV kurs**

**Elyana Huseynova - School of Science and Engineering; Computer science, IV course**




*Şahin Əliyev, AZTV-nin müxbiri Ruslan Həsənov*

*Shahin Aliyev, correspondent of AZTV Ruslan Hasanov*

## "XƏZƏR"İN TƏLƏBƏSİ "EKOLOJİ TERRORA YOX DEYƏK!" AKSİYASINDA

## KHAZAR UNIVERSITY STUDENT IN PROTEST "LET'S SAY NO TO ENVIRONMENTAL TERRORISM"

Azərbaycanın qeyri-hökumət təşkilatlarının (QHT) nümayəndələri Şuşada Rusiya sülhməramlılarının postunun yaxınlığında azərbaycanlı mütəxəssislərin yataqların qeyri-qanuni istismarı ilə bağlı monitorinq aparmaq üçün əraziyə buraxılmamalarına qarşı etiraz aksiyası keçirirlər. Qeyd edək ki, Laçın-Xankəndi yolunda baş verən "Ekoloji terrora YOX deyək!" aksiyası hələ də davam edir.

Həmin aksiyada Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin tələbəsi, "Əbədi Birlik" Gənclər İctimai Birliyinin sədri Şahin Əliyev də iştirak edib.

**Şahin Əliyev deyir**: "Artıq Bakıdayam. Mübarək Şuşamızdakı haqlı mübarizədə iştirak etmək mənim üçün qürurverici və fəxr ediləsi bir mərhələ oldu. Biz dinc şəkildə sadəcə öz haqqımızı tələb edirik, dünyadan da

Representatives of non-governmental organizations (NGOs) of Azerbaijan are holding a protest near the post of Russian peacekeepers in Shusha against the refusal of Azerbaijani experts to enter the area to monitor the illegal exploitation of deposits. Note that the protest "Let's say NO to environmental terrorism" on the Lachin-Khankendi road is still going on.

Shahin Aliyev, a student of Khazar University's School of Economics and Management, chairman of "Everlasting Unity" Youth Public Union, has also participated in that protest.

**Shahin Aliyev says**: "I am already in Baku. Participating in the righteous struggle in our blessed Shusha was a proud for me. We are only peacefully demanding

bu haqlı davada bizim yanımızda olmasını istəyirik. Vətən şirindir, Vətən üçün lazım gəlsə canımızı, qanımızı da verməyə hazırıq. Gələcəkdə Azərbaycanın vətənpərvər gəncliyinin Vətən uğrundakı mübarizəsini tarix kitablarında görəcəyimizi düşünəndə, insan daha da mübariz olur.

Hələ cənab Prezidentin biz gənclərə təşəkkür mesajını demirəm. O təşəkkür ki, bizdəki vətənpərvərlik hisslərini daha da gücləndirdi, motivasiyamız, enerjimiz ən pik səviyyəyə çatdı. Burada Emin adlı bir qazi qardaşımız bizə: "Sizinlə fəxr edirəm, mən Aprel döyüşlərində, II Qarabağ müharibəsində iştirak etdim. Qələbə qazandıq. Sizdəki əzmi gördüyümdə daha da sevinirəm" - dedi. Bu sözləri eşidib necə fəxr etməyəsən axı?!

Hal-hazırda estafeti ötürdüyümüz, Laçın-Xankəndi yolunda iştirak edən bütün qardaş-bacılarımıza əzm, mübarizlik və dözüm arzu edirəm. Biz bacaracağıq, çox yaxın zamanda mübarək bayrağımızı Xankəndidə dalğalandıracağıq.

Vətənimin, dövlətimin, xalqımın yanındayam!"

our rights, and we want the world to be with us in this just cause. We are ready to give our lives and blood, if necessary for the Motherland. It instils an even greater sense of courage when we imagine that in the future, we will be able to read about the patriotic youth's struggle for the Motherland in history books.

Mr. President's message of thanks to the youth strengthened our feelings of patriotism, our motivation and energy reached the highest level. "I am proud of you, I participated in the April battles, the Second Karabakh war. We won. I am even happier when I see your determination," he said. How can you not be proud to hear these words?!

I wish perseverance, struggle and endurance to all our brothers and sisters to whom we have passed the baton and who are participating in the protest on the Lachin-Khankendi road. Very soon we will wave our blessed flag in Khankendi.

I am with my homeland, my state, my people!"




*Soldan üçüncü Şahin Əliyev*

*Shahin Aliyev, 3rd from the left*



# HAMLET İSAXANLI: "UNİVERSİTETLƏR VƏ AMEA ELMƏ DƏRİN FİKİR VERMƏDİ, İNDİ İSƏ..."

*2023-cü il fevralın 14-də Moderator.az İnformasiya Agentliyi Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı ilə qısa müsahibə dərc etmişdir. Oxucularımıza təqdim edirik.*

**Hazırda ölkəmizdə elmi tədqiqat işlərinin kəmiyyət və keyfiyyətcə azlığından danışan H.İsaxanlı SSRİ dövründən sonra bu sahədə geriləmənin olduğunu bildirdi:**

"SSRİ dövründə Azərbaycan elmi böyük sovet elm məkanının tərkib hissəsi hesab olunurdu. Doktorantura, aspirantura üzrə alimlərimiz yetişir, məqalələrimiz, əsasən, nüfuzlu sovet jurnallarında çıxırdı.

SSRİ dağılandan sonra ən çox əziyyət çəkən, geri qalan sahələrdən biri də elm oldu. Elmi məhsuldarlıq kəskin şəkildə azaldı. Sovet dövründə yetişən alimlər yaşlandılar, vaxt ötdükcə də insanın elmi aktivliyi azalır. Yeni yetişən kadrlar isə o aparıcı sovet məktəblərində yetişmədi və həmin keyfiyyət alınmadı.

"Elmi inkişafın geriləməsinin digər bir səbəbi isə, kadr hazırlanmasının bir az plansız həyata keçirilməsi oldu. Universitetlər və Azərbaycan Milli Elmlər Akademiyası elmə dərin fikir vermədi, məhsuldarlıq və keyfiyyət aşağı düşdü.

Alimlərin xaricdə dərc olunan məqalələrinin sayı azaldı. Bu gün məqalələri daha çox Qərbdə çap etdirmək lazım gəlir. Qərbin bu sahədə tələbatı isə daha fərqlidir. Məqalələr, əsasən, ingilis dilində yazılmalıdır. Xarici elmi jurnallarda çap olunmaq üçün əlavə yoxlamalar, qiymətləndirmələr, formal qaydalar daha çoxdur.

Nəticədə, xaricdə çap olunan məqalələrin sayı azaldı. Bu gün pedaqogika, təhsil elmi sahəsində xaricdə dissertasiya müdafiə etmiş bir nəfər də mütəxəssisimiz yoxdur. Əgər bir elm sahəsi üzrə alimlərimizdən dünyada, yəni xaricdəki yaxşı universitetlərdə müdafiə edən yoxdursa, bizim dünya elmindən necə xəbərimiz olacaq?"

**H.İsaxanlı açıqlamasında elmi məhsuldarlığın zəifləməsində maddi amilin də rolunu qeyd etdi:**

"Elmi məhsuldarlığın azalmasının digər bir səbəbi maddiyyatla bağlıdır. İnsanlar əvvəllər elmə həvəslə gedirdilər, elmə maraqla yanaşı maaşlar yuxarı olurdu. Elm insanları yaşadırdı. Professorun maaşı raykom katibinin maaşından daha yüksək idi. İndi isə elm adamının maaşı digər sahələrlə müqayisədə azdır. Bakalavr təhsilini bitirib biznes idarəçiliyi üzrə magistraturada oxumaq iş dünyasında yaxşı, yüksək maaşlı yer tutmaq üçün kifayət edir. Bunun üçün heç bir elmi dərəcə lazım gəlmir. Belə olduqda PhD (fəlsəfə doktoru) almaq marağı azalır və ya yox olur..."

**Professor son olaraq, elmi sahədə müəyyən inkişafın olduğunu da vurğulayır:**

Bu gün elmi sahədə müəyyən dərəcədə dirçəlmə də var. Universitetlər bir-birilə yarışırlar. Yarışda da əsas yeri elmi fəallıq tutur. Universitetlərin reytinqlərini ölçən zaman, əsasən, onun elmi araşdırmalarını nəzərə alırlar. Ona görə də, universitetlər artıq elmi araşdırmalara fikir verməyə başlayıblar. Amma yenə də arzu olunan səviyyəyə gəlib çatmamışıq".

**Rəna Nəbi**

*https://moderator.az/az/ekskluziv/598680/universitetler-ve-amea-elme-derin-fikir-vermedi-indi-ise- hamlet-isaxanli/*

## DEPARTAMENT MÜDİRİNİN HƏMMÜƏLLİFİ OLDUĞU AUDİOLÜĞƏT" HAZIRLANIB

## "AUDIO VOCABULARY" CO-AUTHORED BY THE DEPARTMENT HEAD PREPARED

İngilis dili və ədəbiyyatı departamentinin müdir əvəzi, fil.ü.f.d. Milana Abbasovanın həmmüəllifi olduğu (digər həmmüəlliflər Ceyhun Kərimov və Samir Balakişiyevdir) "İngilicə-azərbaycanca audiolüğət" ("Audio Vocabulary") hazırlanıb. Lüğət əsasən 9,10 və 11-ci siniflər və buraxılış imtahanına hazırlaşan abituriyentlər üçün nəzərdə tutulub.

Vəsaitdə verilən hər bir sözün həm tərcüməsi, həm də orijinal forması səsləndirilmişdir. Bundan əlavə, hər bölmə üzrə lüğət çalışmaları, sinonim və antonİm lüğəti, 300-dən artıq ən çox istifadə olunan isim, sifət, feil və frazeoloji birləşmələr də verilmişdir.

"Audio Vocabulary in Azerbaijani-English" co-authored by Milana Abbasova, Ph.D. in Philology, acting head of the Department of English Language and Literature (other co-authors are Jeyhun Karimov and Samir Balakishiyev) was prepared. It is mainly intended for 9th, 10th and 11th grades and enrolees preparing for the final exam.

Both the translation and the original form of each word given in the resource are voiced. In addition, vocabulary exercises for each section, a dictionary of synonyms and antonyms, and more than 300 most commonly used nouns, adjectives, verbs, and phraseological units are also provided. The authors hope that the resource will be very useful for enrolees.

## XƏZƏR UNİVERSİTETİNİN VEBSAYTLARINDA YERLƏŞDİRİLMİŞ XƏBƏRLƏR HAQQINDA MÜQAYİSƏLİ MƏLUMAT

## COMPARATIVE INFORMATION ABOUT THE NUMBER OF NEWS POSTED ON UNIVERSITY'S WEBSITE

Xəzər Universitetinin vebsaytı (www.khazar.org): 2008 - 2022 - ci illər

**2008 – 97; 2009 – 149; 2010 – 274; 2011 – 357; 2012 – 476; 2013 – 535; 2014 – 610; 2015 – 700; 2016 – 547; 2017 – 702; 2018 – 700; 2019 – 775; 2020 – 516; 2021 – 705; 2022 – 905**

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının vebsaytı (www.hisaxanli.org): 2009 - 2022 - ci illər

**2009 – 81; 2010 – 125; 2011 – 162; 2012 – 144; 2013 – 156; 2014 – 159; 2015 – 146; 2016 – 158; 2017 – 126; 2018 – 175; 2019 – 121; 2020 – 77; 2021 – 117; 2022 – 113**

**"Xəbər-News"qrupu**

Khazar University Website (www.khazar.org): 2008-2022

**2008 – 97; 2009 – 149; 2010 – 274; 2011 – 357; 2012 – 476; 2013 – 535; 2014 – 610; 2015 – 700; 2016 – 547; 2017 – 702; 2018 – 700; 2019 – 775; 2020 – 516; 2021 – 705; 2022 – 905**

Website of Professor Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees (www.hisaxanli.org): 2009-2022

**2009 – 81; 2010 – 125; 2011 – 162; 2012 – 144; 2013 – 156; 2014 – 159; 2015 – 146; 2016 – 158; 2017 – 126; 2018 – 175; 2019 – 121; 2020 – 77; 2021 – 117; 2022 – 113**

**"Khabar-News" group**

## “XƏZƏR XƏBƏR”İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

# “ƏLİŞİR NƏVAİ VƏ XXI ƏSR” MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS



**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda “Əlişir Nəvai və XXI əsr” mövzusunda 8-ci beynəlxalq konfrans keçirilib. Konfransa Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov, Özbəkistandan və Türkiyədən gəlmiş alimlər, akademiyanın bir neçə institutunun əməkdaşları qatılmışdılar.**

**Tədbirdən öncə Əlişir Nəvaiyə həsr olunmuş əsərlərdən ibarət sərgiyə baxış olub.**

**Beynəlxalq konfransı AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açaraq, Azərbaycanın Əlişir Nəvainin və nəvaişünaslıq elminin ikinci vətəni olduğunu diqqətə çatdırıb. Səməd Vurğunun “Əlişir Nəvainin Özbəkistanda doğulduğunu bilməsəydim, hesab edərdim ki, o, azərbaycanlıdır” - sözlərini xatırladan akademik bu gün də ölkəmizdə Nəvai irsinin dərindən öyrənildiyini, nəvaişünaslıq elmini zənginləşdirən əsərlərin ortaya qoyulduğunu, elmi işlərin yazıldığını söyləyib. Həmçinin, 2020-ci ildə Ədəbiyyat İnstitutunun Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr şöbəsinin nəzdində Əlişir Nəvai Ədəbiyyatşünaslıq Mərkəzinin açıldığını və uğurla fəaliyyət göstərdiyini bildirib. Öz növbəsində Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetində Məhəmməd Füzulinin adını daşıyan Azərbaycan mədəniyyət, təhsil və tədqiqatlar Mərkəzinin yaradıldığını diqqətə çatdırıb.**

**AMEA prezidenti “Əlişir Nəvai və XXI əsr” mövzusunda keçirilən 8-ci beynəlxalq konfransın ədibin əsərlərinin ölkəmizdə yenidən tədqiqinə meydan açacağını söyləyib, tədbirin işinə uğurlar arzulayıb.**

**Sonra akademik İsa Həbibbəyli Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin rektoru, professor Şuxrat Sirojiddinova sözügedən universitetdəki Füzulinin adını daşıyan mərkəzdə sərgilənməsi üçün Məhəmməd Füzulinin portreti əks olunan xalça hədiyyə edib.**

**Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin rektoru, professor Şuxrat Sirojiddinov çıxış edərək ona hədiyyə edilən Füzuli xalçasına və konfransın təşkilinə görə təşəkkür edib. Təmsil etdiyi Universitet və onun Ədəbiyyat İnstitutu ilə əlaqələrindən danışıb.**

**Konfrans panel sessiyaları ilə işini başa çatdırıb.**

# "MƏHTİMQULU FƏRAQİ – DÜNYA ƏDƏBİYYATININ GÖRKƏMLİ ŞAİRİ"

Ədəbiyyat İnstitutunda "Məhtimqulu Fəraqi – dünya ədəbiyyatının görkəmli şairi" adlı Beynəlxalq elmi konfrans keçirilib. Konfransa Türkmənistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Qurbanməmmet Elyasov, Türkmənistandan gəlmiş alimlər də qatılıblar.

Tədbirdən öncə Türkmənistan mədəniyyətini əks etdirən sərgiyə baxış olub.

Beynəlxalq konfransı AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açıb, Azərbaycan-Türkmənistan əlaqələrinin tarixindən bəhs edərək, bu əlaqələrin müstəqillik illərində daha da inkişaf etdiyini xatırladıb.

Məhtimqulu Fəraqinin zəngin ədəbi irsinin Azərbaycanda geniş tədqiq edildiyini deyən akademik İsa Həbibbəyli ölkəmizin şairin yaradıcılığının, ideallarının öyrənilməsi baxımından ikinci böyük mərkəz olduğunu söyləyib. Alim bildirib ki, bu istiqamətdə görülmüş işlərdən biri AMEA alimlərinin ilk dəfə olaraq Bakıda aşkar edib üzə çıxardıqları Məhtimqulu Fəraqinin əlyazma "Divan"ının nəşr edilməsi olub: "Bu, Məhtimqulu Fəraqinin 1913-cü ildə Buxara şəhərində daş basması üsulu ilə çap edilmiş və indiyədək naməlum qalan yeganə nüsxəsidir və şairin irsinin öyrənilməsinə ən böyük töhfəmizdir".

AMEA rəhbəri çıxışının sonunda Məhtimqulu Fəraqinin 300 illik yubileyinə töhfə olaraq böyük mütəfəkkirin zəngin ədəbi irsi ilə bağlı ortaq kitabın nəşr olunması təklifini irəli sürüb. Məhtimqulu Fəraqinin "Divan"ını qonaqlara hədiyyə edib.




Konfransda Türkmənistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Qurbanməmmet Elyasov çıxış edərək, Azərbaycanda türkmən xalqının qüdrətli şairi Məhtimqulu Fəraqi yaradıcılığına göstərilən diqqətə görə tədbirin təşkilatçılarına minnətdarlığını bildirib. Səfir qeyd edib ki, Məhtimqulu Fəraqinin yaradıcılığı təkcə türkmən xalqının deyil, dünyanın digər xalqlarının da mədəniyyətinə təsir göstərmişdir. Şairin zəngin irsi dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmiş, onun əsərləri bir çox xalqların dillərinə tərcümə edilmişdir. Qurbanməmmet Elyasov Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən görkəmli türkmən şairi və mütəfəkkiri Məhtimqulu Fəraqinin 300 illik yubileyi münasibətilə 2024-cü ilin "Məhtimqulu ili" elan edildiyini diqqətə çatdırıb.

Sonra Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Məmməd Əliyev "Məhtimqulu Fəraqi və Molla Pənah Vaqif şeirinin özəllikləri" adlı məruzə ilə çıxış edərək hər iki şairin şeirlərini nümunələr əsasında müqayisə edib.

Konfransda Türkmənistan və Azərbaycan filoloqları müxtəlif mövzularda məruzələrlə çıxış ediblər.

**Gülnar Səma**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*İctimaiyyətlə əlaqələr şöbəsi*

Co-funded by the Erasmus+ Programme of the European Union

# STRATEJİ İNKİŞAF ÜZRƏ KOMİTƏNİN İLK İCLASI

# THE FIRST MEETING OF THE COMMITTEE ON STRATEGIC DEVELOPMENT

Yanvrın 10-da Bakı Biznes Universitetinin koordinatorluğu və Avropa Komissiyasının maliyyə dəstəyi ilə həyata keçirilən, Xəzər Universitetinin tərəfdaş olduğu “Azərbaycanda Rektorlar Konfransının yaradılması” (ECAR) adlı Erasmus+ layihəsi çərçivəsində Strateji inkişaf üzrə komitənin ilk iclası keçirilib.

Onlayn formatda baş tutan toplantıda ilkin olaraq tərəfdaşlar komitə üzvləri ilə tanış oldular. Həmçinin strateji inkişaf məsələləri üzrə müzakirələrin aparılması, komitənin funksiyaları, komitə sədrliyinə namizədliyə dair tələblər, idarə heyəti və sədrinin seçilməsi qaydaları iclas zamanı müzakirə olunan əsas mövzular olub. Müzakirələrin gedişində tərəfdaşların rəyləri dinlənilərək, müvafiq düzəlişlər edilib.

İclas zamanı 2 nəfərin namizədliyi idarə heyətinin sədri vəzifəsini tutmaq üçün irəli sürülüb.Sonda sədr və müavinlər seçilib.

Görüşdə Xəzər Universitetini İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayeva təmsil edib.

The first meeting of the Committee on Strategic Development was held within the framework of the Erasmus+ project "Establishment of the Conference of Rectors in Azerbaijan" (ECAR). The seminar was carried out under the coordination of Baku Business University, with the financial support of the European Commission and the partnership of Khazar University.

Initially, the partners got acquainted with the committee members at the online meeting. Also, conducting discussions on strategic development issues, functions of the committee, requirements for candidacy for the chairmanship of the committee, rules for selecting the board and chairman were the main topics discussed during the meeting. In the course of the discussions, the opinions of the partners were taken into consideration and proper amendments were suggested.

At the meeting, 2 people were nominated for the position of chairman of the management board. In the end, the chairman and his deputies were appointed. Raziya Isayeva, head of the Development Center, represented Khazar University at the meeting.

# ECAR LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ POLŞA RESPUBLİKASINA SƏFƏR

# VISIT TO THE REPUBLIC OF POLAND WITHIN ECAR PROJECT

Yanvarın 30-dan fevralın 4-dək Bakı Biznes Universitetinin koordinatoru olduğu, Avropa Komissiyası tərəfindən maliyyələşdirilən və Xəzər Universitetinin də tərəfdaş olduğu "Azərbaycanda Rektorlar Konfransının yaradılması" adlı Erasmus+ layihəsi çərçivəsində Polşaya növbəti işgüzar səfər baş tutub. Səfərdə Xəzər Universitetini İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov təmsil edib. Polşa Universitetlərinin Rektorlar Konfransı (CRASP) tərəfindən təşkil olunan səfərin məqsədi Polşa ali təhsil müəssisələrinin strateji inkişaf məsələlərinin öyrənilməsi olub.



Təlimlərin ilk iki günü Kozminski Universitetində keçirilib. Burada universitetin ümumi inkişaf, dayanıqlı inkişaf, rəqəmsal tranformasiya strategiyaları, həmçinin əməkdaşların təkmilləşdirilməsi ilə bağlı yerli və Avropa layihələri üzrə təcrübələri öyrənilib.

Səfərin növbəti günlərində Varşava Həyat Elmləri Universitetinin rektoru, Polşa Univer-

(Ardı səh.58-də)

From January 30 to February 4, the next business trip to Poland took place within the framework of the Erasmus+ project called "Establishment of the Rectors' Conference in Azerbaijan" funded by the European Commission and coordinated by Baku Business University and partnered by Khazar University. Khazar University was represented by Dr.Jeyhun Mammadov, Dean of the School of Economics and Management. The purpose of the visit, organized by the Conference of Rectors of Polish Universities (CRASP), was to study the issues of strategic development of Polish higher education institutions.

The first two days of training were held at Kozminsky University. Here, the experiences of the university on general development, sustainable development, digital transformation strategies, as well as local and European projects related to the improvement of employees were studied.

In the following days of the visit, Michał Zasada, rector of the Warsaw University of Life Sciences, vice-president of the Conference of Rectors of Polish Universities, gave detailed information

(To be continued page 58)

sitetlərinin Rektorlar Konfransının vitse-prezidenti Michał Zasada tərəfindən strateji planlamada insan resurslarının idarə edilməsi, maliyyənin idarə edilməsinin əsas kriteriyaları, o cümlədən CRASP-ın fəaliyyəti ilə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verilib. Həmçinin, CRASP-ın baş katibi Agata Kulesza səfər iştirakçıları ilə CRASP-ın milli və beynəlxalq təcrübələri ilə bağlı ətraflı fikir mübadiləsi aparıb.

Varşava Həyat Elmləri Universitetinin əməkdaşları tərəfindən strateji inkişaf və keyfiyyət məsələlərinin qarşılıqlı əlaqəliliyi, Polşa ali təhsil müəssisələrində monitorinq və qiymətləndirmə prosesləri, strateji idarəetmə üzrə akkreditasiya meyarları kimi mühüm mövzularda təlim-seminarlar keçirilib.

Təlim proqramı çərçivəsində Varşava Universitetinin əməkdaşı Şəhla Kazımova universitetdə Azərbaycan dilinin tədrisi, Azərbaycan mədəniyyətinin təbliği, elmi konfranslar və digər tədbirlər haqqında ətraflı məlumat verib.

Səfər çərçivəsində Azərbaycan ali təhsil müəssisələrinin nümayəndələrinin Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova ilə görüşü olub. Görüşdə səfir Polşada, xüsusilə ali məktəblərdə həyata keçirilən sosial-mədəni tədbirlər, layihələr haqqında danışıb. N.Qurbanova universitetlərimizi Polşa ali təhsil müəssisələri ilə əməkdaşlığı daha da gücləndirməyə dəvət edib və bu istiqamətdə müvafiq dəstəyin göstərilə biləcəyini söyləyib.

to the event participants about the main criteria of human resources management in strategic planning, financial management, including the activities of CRASP. Also, General Secretary of CRASP Agata Kulesza exchanged detailed views on national and international experiences of CRASP with the participants of the trip.

The employees of the Warsaw University of Life Sciences held training seminars on important topics such as the interrelationship of strategic development and quality issues, monitoring and evaluation processes in Polish higher education institutions, and accreditation criteria for strategic management.

Within the framework of the training program, Shahla Kazimova, an employee of the University of Warsaw, gave detailed information about the teaching of the Azerbaijani language, promotion of the Azerbaijani culture, scientific conferences and other events at the university.

Within the framework of the visit, representatives of Azerbaijani higher education institutions had a meeting with the Ambassador of Azerbaijan to Poland, Nargiz Gurbanova. At the meeting, the ambassador talked about socio-cultural events and projects implemented in Poland, especially in higher schools.

N.Gurbanova invited our universities to further strengthen cooperation with Polish higher education institutions and said that appropriate support can be provided in this direction.

## ECAR: MƏLUMATLANDIRICI SEMİNAR

Yanvarın 31-də Xəzər Universitetində Bakı Biznes Universitetinin koordinatorluğu və Avropa Komissiyasının maliyyə dəstəyi ilə həyata keçirilən, Xəzər Universitetinin tərəfdaş olduğu "Azərbaycanda Rektorlar Konfransının yaradılması" (ECAR) adlı Erasmus+ layihəsi çərçivəsində 2 sessiyalı məlumatlandırıcı seminar keçirilib.

Seminarın ilk hissəsində universitetin yerli və xarici tələbələri, 2-ci hissəsində isə universitetin akademik və administrativ heyəti iştirak edib.

Beynəlxalq Ofis və İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə təşkil olunan tədbirdə Beynəlxalq

## AN INFORMATIVE SEMINAR WITHIN ERASMUS+ ECAR PROJECT

On January 31, a two-session informative seminar was held at Khazar University within the framework of the Erasmus+ project "Establishment of the Conference of Rectors in Azerbaijan" (ECAR).

The seminar was carried out under the coordination of Baku Business University, with the financial support of the European Commission and the partnership of Khazar University.

Local and foreign students of the university attended the first part of the seminar while academic and administrative staff of the university participated in the second part. Vlad Vernygora, vice-rector for International Relations and the project member of the committee on





*Vlad Vernygora*

əlaqələr üzrə prorektor, eyni zamanda layihənin Ali təhsildə Beynəlmiləlləşmə üzrə komitə üzvü Vlad Vernygora təqdimatla çıxış etdi. O, layihə çərçivəsində görülmüş və görüləcək işlər, layihənin əsas məqsədi haqqında məlumat verdi.

Sonra layihə çərçivəsində edilmiş səfərlər, səfərlərdə müzakirə olunan mövzular haqqında iştirakçılar məlumatlandırıldı.

Görüş sual-cavab sessiyası ilə yekunlaşdı.

Internationalization in Higher Education, made a presentation at the event organized jointly by the International Office and Development Center. He spoke about the work done and plans within the framework of the project along with the main goal of the project.

Then the participants were informed about the visits made within the project and the topics discussed during the visits.

The meeting concluded with a question-and-answer session.

## ECAR LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏLİM

Fevralın 7-də Bakı Biznes Universitetinin koordinator və Xəzər Universitetinin tərəfdaş olduğu, Avropa Komissiyası tərəfindən maliyyələşən "Azərbaycanda Rektorlar Konfransının Yaradılması" (ECAR) adlı Erasmus+ layihəsi çərçivəsində Azərbaycan HR İnstitutu tərəfindən keçirilən "Strateji insan resurslarının idarə olunması" tədris proqramının açılışı oldu.

Azərbaycan Turizm və Menecment Universitetində təşkil olunan açılış mərasimində universitetin tədris işləri üzrə prorektoru, f.ü.e.d., professor Zaur Bağırov və Azərbaycan HR İnstitutunun təsisçisi və direktoru Emil Hüseynov çıxış edərək, proqramın vacibliyi və əhəmiyyəti haqqında danışıblar.

6 həftə ərzində keçirilməsi nəzərdə tutulan tədris proqramında Azərbaycanın layihə tərəfdaşı olan 16 Ali təhsil müəssisəsindən 18 nəfər iştirak edir və məqsəd ali təhsil müəssisələrində insan resursları idarə edilməsinin təkmilləşdirilməsidir.

Təlimdə Xəzər Universitetini Kadrlar şöbəsinin koordinatoru Aybəniz Namazova təmsil edir.

## TRAINING WITHIN ECAR PROJECT

On February 7, the opening of the "Strategic human resources management" educational program held by the Azerbaijan HR Institute within the framework of the Erasmus+ project "Establishment of the Conference of Rectors in Azerbaijan" (ECAR) funded by the European Commission, coordinated by Baku Business University and partnered by Khazar University.

At the opening ceremony organized at Azerbaijan University of Tourism and Management, vice-rector for Educational Affairs, doctor of philosophy, professor Zaur Baghirov and founder and director of Azerbaijan HR Institute Emil Huseynov spoke about the importance of the program.

18 people from 16 higher education institutions, which are Azerbaijan's project partners, participate in the training program, which is planned to be held for 1.5 months, and the goal is to improve human resources management in higher education institutions. Aybeniz Namazova, coordinator of the HR department, represents Khazar University in the training.

## ERASMUS+ ATPG-2023 QRANT SAHİBLƏRİNİN GÖRÜŞÜ

## MEETING OF ERASMUS+ CBHE 2023 GRANT HOLDERS

Fevralın 7-8-də Erasmus+ ATPG-2023 Proqramı çərçivəsində maliyyələşməyə seçilmiş layihələrin koordinatorları üçün onlayn görüş keçirilmişdir. Tədbirdə "Azərbaycanda İnstitusional Repozitorlar Şəbəkəsi" DİRNA layihəsinin koordinatoru kimi Xəzər Universiteti İnkişaf Ofisinin direktoru Raziyə İsayeva iştirak etmişdir.

İki gün davam edən görüş proqramla bağlı məsələləri müzakirə etmək və fikir mübadiləsi aparmaq üçün 150 qurumun nümayəndələrinin iştirakı ilə keçib.

Görüşün ilk günündə EACEA.A.4 Beynəlxalq Potensialın Gücləndirilməsi bölməsinin rəhbəri Barbara Gessler və Erasmus+ və Aİ Yardım Könüllüləri Direktoru vəzifəsini icra edən və Departamentin rəhbəri Sofi Beernaerts "Ali Təhsildə Potensialın Gücləndirilməsi: cari və gələcək perspektivlər" mövzusunda çıxış etdilər.

Sessiyanın növbəti günü ATPG (Ali Təhsildə Potensialın Gücləndirilməsi) layihəsinin icrası, monitorinqi və idarə edilməsi ilə bağlı əsas məqamlara həsr olunub. Raziyə İsayeva Açıq Giriş İnstitusional Repozitoriyalar Şəbəkəsinin yaradılması yolu ilə Azərbaycanın səkkiz aparıcı ali təhsil müəssisəsinə diqqət yetirməklə tədqiqat nəticələrinin idarə edilməsi kontekstində potensialın artırılması məqsədi daşıyan "Azərbaycanda İnstitusional Repozitorlar Şəbəkəsi" DİRNA layihəsi haqqında təqdimatla çıxış etdi. Layihə Azərbaycanın səkkiz ali təhsil müəssisəsi və üç Avropa ali təhsil qurumundan ibarətdir.

Görüş sual-cavab sessiyası ilə başa çatıb.

On February 7-8, the online meeting was held for coordinators of projects selected for funding within the Erasmus+ 2023 Program. Ms. Raziya Isayeva, Director of Development Office participated in the meeting as the coordinator for the "Institutional Repositories Network in Azerbaijan" DIRNA project.

The two-day meeting brought together representatives of 150 institutions to discuss program related matters and exchange ideas.

In the first day of the meeting Barbara Gessler,Head of Unit EACEA.A.4 International Capacity Building and Sophie Beernaerts, Acting Director and Head of Department Erasmus+ and EU Aid Volunteers gave speech about Capacity Building in Higher Education: current and future prospective.

The next day of the session was devoted for CBHE Project Implementation, Monitoring and Management highlights.Ms. Raziya Isayeva gave presentation about project "Institutional Repositories Network in Azerbaijan" DIRNA which aims at building capacity in the context of research output management, focusing on eight leading AZ HEIs, via establishing Open Access Institutional Repositories Network. The Project comprises of 8 AZ HEIs, and 3 European Higher Education Institutions (EU HEIs).

Meeting was ended with Q&A session.

## ERASMUS+ PICASP LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ GÖRÜŞ

## MEETING WITHIN ERASMUS+ PICASP PROJECT

Fevralın 14-də Erasmus + PICASP layihəsi çərçivəsində yerli tərəfdaşların iştirakı ilə virtual görüş keçirilmişdir.

Görüşdə Azərbaycan Turizm və Menecment Universiteti, Xəzər Universiteti və "Miras" İctimai Birliyindən nümayəndələr layihə çərçivəsində nəzərdə tutulan tədbirlər, qarşıda duran məsələlər və layihənin sonuncu ilində görüləcək işlər haqqında fikirlərini bildirmişlər.

Tədbirdə Xəzər Universitetini İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov və İnkişaf ofisinin layihə meneceri Səbinə Quluyeva təmsil etmişdir.

On February 14, a virtual meeting was held within the framework of Erasmus+ PICASP project with the participation of local partners.

The representatives from Azerbaijan Tourism and Management University, Khazar University and "Miras" Public Union expressed their opinions about planned measures within the framework of the project, the issues ahead and work to be done in the project's last year.

Dr. Jeyhun Mammadov, the dean of School of Economics and Management and Sabina Guliyeva, the project manager of Development Office represented Khazar University in the project.

# "XOCALIDA SON GECƏ"
# THE EVENT "LAST NIGHT IN KHOJALY"

Fevralın 23-də Tarix və arxeologiya departamenti ilə "Əbədi Birlik" təşkilatının birgə əməkdaşlığı ilə Xəzər Universitetinin Neftçilər kampusunda Xocalı Soyqırımının 31-ci ildönümü münasibətilə "Xocalıda son gecə" adlı anım tədbiri keçirildi.

Şəhidlərin xatirəsinə bir dəqiqəlik sükut və Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirin qonaqları arasında Milli Məclisin üzvü Naqif Həmzəyev də var idi.

İlk hissədə Tarix və Arxeologiya departamentinin müəllimi Prof. Nəsiman Yaqublu bu soyqırım faciəsi haqqında çoxsaylı faktlarla çıxış etdi. Müxtəlif şeirlərin səsləndirildiyi və digər çıxışların olduğu tədbir xatirə şəklinin çəkilməsi ilə yekunlaşdı.

On February 23, 2023, a commemorative event called "Last Night in Khojaly" was held on the occasion of the 31st anniversary of the Khojaly Genocide in the Neftchilar campus of Khazar University with the joint cooperation of the Department of History and Archeology and the "Eternal Unity" organization.

Among the guests of the event, which began with a minute's silence in memory of the martyrs and the playing of the National Anthem, was Nagif Hamzayev, the member of the Milli Majlis.

In the first part, the lecturer of the Department of History and Archeology Prof. Nasiman Yagublu spoke with numerous facts about this genocide tragedy. The event, where various poems were recited and other speeches were made, ended with a memory photo.





*Nəsiman Yaqublu*
*Nasiman Yagublu*

## XOCALI SOYQIRIMI İLƏ BAĞLI TƏDBİR

## AN EVENT DEDICATED TO KHOJALY TRAGEDY

Fevralın 27-də Xəzər Universitetinin Mərkəz kampusunda Fikrət Əmirov Konfrans-Konsert salonunda Xocalı soyqırımının 31-ci ildönümü münasibətilə ədəbi-bədii tədbir keçirildi. Tədbir "Art" tələbə dərnəyinin təşəbbüsü, İngilis dili və ədəbiyyatı departamentinin təşkilatçılığı ilə təşkil olunmuşdu. Tələbələr şeir söyləyərək, səhnəciklər göstərərək, videoçarxlar nümayiş etdirərək, hazırladıqları geniş proqramın yüksək səviyyədə təqdimatına nail oldular.

Tədbirin sonunda departamentin müdir əvəzi Milana Abbasova çıxış edərək, tələbələrə təşəkkürünü bildirdi.

On February 27, 2023, a literary and cultural event was held on the occasion of the 31st anniversary of the Khojaly tragedy at the Fikret Amirov Conference-Concert Hall in the downtown campus of Khazar University. The event was organized by the initiative of the "Art" student association and the organization of the English Language and Literature Department. By reciting poems, showing scenes, and demonstrating video clips, the students managed to present the wide program they prepared at a high level.

At the end of the event, Milana Abbasova, the acting head of the department, delivered a speech and thanked the students.



*Qənirə Paşayeva (soldan 3-cü) tədbir iştirakçıları ilə*
*Ganira Pashayeva ( 3rd from the left) with the participants of the event*

## MƏFAİ-DƏ NÖVBƏTİ "AÇIQ QAPI GÜNÜ"

Yanvarın 21-də Xəzər Universiteti Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunda (MƏFAİ) növbəti "Açıq qapı günü" keçirildi. Azərbaycan Respublikası Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva tədbirin qonağı oldu.

Tədbirdə MƏFAİ-nin direktoru Dr.Nəzakət Məmmədli Mövlananın "Məsnəvi" əsərindən "Xəzinə dalınca Misirə gedən şəxsin hekayəsi" ni şərh etdi. Psixoloq Elnarə Baxışlının "Özümüzü necə inkişaf etdirməli?" mövzusunda məruzəsi dinlənildi.

Sonra irfan və təsəvvüf, şəxsiyyətin inkişafı mövzularında maraqlı müzakirələr oldu.

## EVENT AT MEVLANA LITERATURE - PHILOSOPHY RESEARCH INSTITUTE

On January 21, the next "Open Door Day" was held at the Khazar University Mevlana Literature - Philosophy Research Institute. Ganira Pashayeva, chairperson of the Culture Committee of the Milli Majlis of the Republic of Azerbaijan, was the guest of the event.

At the event, the director of Mevlana Literature - Philosophy Research Institute Dr. Nazakat Mammadli commented on "The story of a person who went to Egypt in search of treasure" from Mavlana's "Masnavi". Psychologist Elnara Bakhishli made a speech on "How to develop ourselves?"

Then there were interesting discussions on the topics of gnosis and Sufism, personality development.

## İNGİLİS DİLİ MÜƏLLİMLƏRİ ÜÇÜN TƏLİM

İngilis dili və ədəbiyyatı departamentinin müdiri vəzifəsini icra edən Milana Abbasovanın iştirakı və departamentin müəllimi Oluvaseyi Sodiya`nın təqdimatı ilə Bakı şəhərinin Xətai rayonundakı Humanitar Fənlər Təmayüllü Məktəb-Liseyin ingilis dili müəllimlərinə "Şagirdlərin düzgün qiymətləndirilməsi və motivasiya edilməsi" adlı təlim keçirildi.

Təlim 2023-cü il yanvarın 27-də qeyd olunan lisey-məktəbdə baş tutdu. Həm nəzəri, həm də praktiki hissədən ibarət olan təlimdə məktəb müəllimləri dərsin maraqlı qurulması strategiyaları, şagirdlərin motivasiya edilməsi və qiymətləndirilməsi ilə bağlı maraqlı məlumatlar əldə etdilər və öz təcrübələrini bölüşdülər.

## TRAINING FOR SCHOOL TEACHERS

English Language and Literature Department held a training "Accurate evaluation and motivation of students" at the initiative of Milana Abbasova, acting head of the department, and with the presentation of the instructor of the department, Oluwaseyi Olubunmi Sodiya for English language teachers of the Humanities-oriented school-lyceum in Khatai district, Baku.

The training took place on January 27, 2023 at the above-mentioned school-lyceum. In the training, which consisted of both theoretical and practical parts, the school teachers got interesting information about the strategies of creating an interesting lesson, motivating and evaluating students, and shared their experiences.

## SEMİNAR: "TƏRCÜMƏDƏ LİNQVİSTİK VƏ MƏDƏNİ FƏRQLƏR"

Yanvarın 27-də İngilis dili və ədəbiyyatı departamenti "Tərcümədə linqvistik və mədəni fərqlər" mövzusunda seminar təşkil etdi. Seminarı Ragi MMC Tərcümə Şirkətinin direktoru İsrafil Xakiyev aparıb.

Seminarda departamentin əməkdaşları, tələbələr və Azərbaycanın müxtəlif qurumlarından gələn qonaqlar iştirak etdilər.

Seminarda tərcümənin əsas məsələlərinə dair təqdimat dinlənilib. Seminar interaktiv olduğu üçün iştirakçılar da müzakirələrə qoşularaq, öz fikirlərini bölüşüblər.

## WORKSHOP:"LINGUISTIC AND CULTURAL DIFFERENCES IN TRANSLATION"

On January 27, the Department of English Language and Literature held a workshop on "Linguistic and cultural differences in translation". The workshop was conducted by a Director of Ragi LLC Translation Company Israfil Khakiyev.

The workshop was attended by the staff members of the department, students and guest participants from different institutions of Azerbaijan.

In the workshop, a presentation was delivered, participants were informed about key issues of translation. As it was an interactive workshop the participants were also engaged and shared their valuable ideas.

# DEPARTAMENTİN ƏMƏKDAŞLARI AZƏRSU "SUKANAL" ELMİ-TƏDQİQAT VƏ LAYİHƏ İNSTİTUTUNDA

# EMPLOYEES OF THE DEPARTMENT AT AZERSU "SUKANAL" SCIENTIFIC-RESEARCH AND DESIGN INSTITUTE

Fevralın 1-də Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müdir əvəzi Milana Abbasova və əməkdaşları Pərvanə Babayeva, Rəhimə Xəlilli Azərsu "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutunda institutun əməkdaşları arasında ingilis dili səviyyə imtahanı keçirmişlər.

İmtahan nəticəsinə uyğun olaraq, departamentin müəllimləri 2023-cü il fevralın 9-dan başlayaraq institutunda əməkdaşlara iki ayrı-ayrı səviyyədə ingilis dili dərsləri keçəcəklər. Nəticədə əməkdaşların ingilis dili səviyyəsi lazımlı şəkildə artacaq və bu beynəlxalq əlaqələrin inkişafına müsbət təsir göstərəcək.

Xəzər Universitetinin əməkdaşları "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutunun direktoru, Elmi-Texniki Şuranın sədri Vüqar Mirzəyev, müdir müavinləri Elnur Nəsirov və Rəşail İsmayılov ilə də görüşmüş, əməkdaşlıq və faydaları barədə müzakirələr aparılmışdır.

On February 1, Milana Abbasova, acting head of Khazar University's English Language and Literature Department, and the employees of the department Parvana Babayeva, Rahima Khalilli conducted an English language level exam among the institute's employees at the Azersu "Sukanal" Scientific-Research and Design Institute.

According to the results of the exam, the instructors of the department will conduct two different levels of English language classes to the employees of the institute starting from February 9, 2023. As a result, the English language level of employees will increase accordingly and this will have a positive effect on the development of international relations.

Khazar University staff members also met with the director of "Sukanal" Scientific-Research and Design Institute, chairman of the Scientific and Technical Council Vugar Mirzayev, deputy directors Elnur Nasirov and Rashail Ismayilov, and discussions were held about cooperation and benefits.



*Vüqar Mirzəyev, Rəşail İsmayılov, Elnur Nəsirov, Milana Abbasova, Rəhimə Xəlilli*
*Vugar Mirzayev, Rashail Ismayilov, Elnur Nasirov, Milana Abbasova, Rahima Khalilli*

# "ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN 76-CI MƏŞĞƏLƏSİ

# THE 76TH SESSION OF "SCIENCE AND ART ASSEMBLY"



*Hamlet İsaxanlı*
*Hamlet Isakhanli*

*Bayram Quliyev*
*Bayram Guliyev*

Fevralın 9-da Xəzər Universiteti "Elm və Sənət Məclisi"nin 76-cı məşğələsi keçirildi. Məşğələni giriş sözü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor, akademik Hamlet İsaxanlı açaraq, "Kitabi Dədəm Qorqud" və onun "Türkmən-Səhra" nüsxəsi haqqında geniş məlumat verdi. O, sözü məruzəçi – Xəzər Universiteti Tarix və arxelologiya departamentinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Bayram Quliyevə verərək, məşğələnin çox mübahisələrə səbəb olacağını bildirdi.

Bayram Quliyev "Kitabi Dədəm Qorqud" və "Türkmən - Səhra" nüsxəsi" mövzusunda elmi əsaslarla geniş məruzə ilə çıxış etdi. Məruzədən sonra gərgin müzakirələrə başlandı.

Müzakirələrdə Hamlet İsaxanlı, professorlar - Qəzənfər Paşayev (AMEA-nın Ədəbiyyat İnstitutu), Şahin Fazil (AMEA-nın Tarix İnstitutu), Cəlil Nağıyev (Bakı Dövlət Universiteti), dosentlər - Elnarə Əliyeva, Qətibə Quliyeva ( AMEA-nın Dilçilik İnstitutu), Boran Əziz ( Bakı Dövlət Universiteti), Dədə Qorqud Milli Fondunun prezidenti Eldar İsmayılov və digərləri çıxış edib, fikirlərini bildirdilər. Sonda Hamlet İsaxanlı maraqlı müzakirələr üçün toplaşanlara dərin təşəkkürünü bildirdi.

On February 9, the 76th session of Khazar University "Science and Art Assembly" was held. The session was opened by the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, who gave detailed information about "Kitabi Dada Gorgud" and its "Turkmen-Sahra" copy. He gave the floor to the speaker - Khazar University History and Archeology Department instructor, Doctor of Philosophy in History Bayram Guliyev, and said that the session will cause many disagreements.

Bayram Guliyev delivered a wide-ranging report on the topic of "Kitabi Dada Gorgud" and its "Turkmen-Sahra" copy on scientific grounds. After the report, intensive discussions began.

Hamlet Isakhanli, professors - Gazanfar Pashayev (Institute of Literature of ANAS), Shahin Fazil (Institute of History of ANAS), Jalil Nagiyev (Baku State University), associate professors - Elnara Aliyeva, Katiba Guliyeva (Institute of Linguistics of ANAS), Boran Aziz (Baku State University), Eldar Ismayilov, president of the Dada Gorgud National Foundation, and others spoke and expressed their opinions. In the end, Hamlet Isakhanli thanked those gathered for the interesting discussions.





# ŞƏHİD LEYTENANT MURAD NAĞIYEVİN ANIM GÜNÜ

Fevralın 14-də Xəzər Universitetinin Mərkəz kampusunda II Qarabağ müharibəsinin şəhidi leytenant Murad Nağıyevə həsr olunmuş tədbir keçirildi. Tədbir Xəzər Universiteti Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə Dillər və ədəbiyatlar departamenti və İctimai əlaqələr və media şöbəsi ilə birgə təşkil olunmuşdu.

Şəhidin anası Xavər Məhəmmədi, qardaşları Orxan və Sərxan Nağıyevlər, çox sayda şəhid anaları, müəllimlər və ictimai fəallar tədbirin qonağı oldular.

Xəzər Universiteti tələbələrinin böyük maraq göstərdiyi tədbir Türkiyədə zəlzələ qurbanlarının xatirəsinə sükutla başladı, sonra Dövlət himni səsləndirildi.

Şəhid Murad Nağıyevin qələmə aldığı və ona həsr olunan şeirlər, mahnılar səsləndirildi, şəhid haqqında çəkilən video və film nümayiş etdirildi.

Universitetin rektoru İradə Xəlilova, şəhidin qardaşı Orxan Nağıyev, Tarix və arxeologiya departamentinin müəllimi t.ü.f.d. Rüxsarə Quliyeva, şəhidin müəllimi olmuş Rüxsarə Əlizadə, şəhid haqqında "Sonsuzluğa gedən 14 addım" şeirini qələmə almış baş leytenant Seymur Atilla və digərləri çıxış etdilər. Çıxışlarda 44 günlük Vətən müharibəsinin zəfərlə başa çatması üçün canlarından keçən şəhidlərin qəhrəmanlığından və onların nümunəsinin gənc nəslin vətənpərvərlik tərbiyəsində böyük önəmindən bəhs olundu.

# MARTYR LIEUTENANT MURAD NAGIYEV'S MEMORIAL DAY

On February 14, an event dedicated to Lieutenant Murad Nagiyev, a martyr of the Second Karabakh War, was held at the downtown campus of Khazar University. The event was organized by the Department of History and Archeology of Khazar University in cooperation with the Department of Languages and Literatures and the Office of Public Relations and Media.

The martyr's mother Khavar Mahammadi, his brothers Orkhan and Sarkhan Nagiyev, many other martyrs' mothers, teachers and social activists were the guests of the event.

The event, which Khazar University students showed great interest in, began with silence in memory of the victims of the earthquake in Türkiye, and then the National Anthem was played.

Poems of him and songs dedicated to the martyr Murad Nagiyev were played, and the video and film about the martyr was shown.

Rector of the university Irada Khalilova, brother of the martyr Orkhan Nagiyev, the lecturer of the Department of History and Archeology, Ph.D.in history Rukhsara Guliyeva, Rukhsara Alizade, who was the teacher of the martyr, senior lieutenant Seymur Atilla, who wrote the poem "14 steps to infinity" about the martyr, and others spoke. In the speeches, the heroism of the martyrs who died for the victorious end of the 44-day Patriotic War and the great importance of their example in the patriotism education of the young generation were discussed.



*Soldan ikinci Xavər Məhəmmədi*
*Khavar Mahammadi, 2nd from the left*



*Orxan Nağıyev, Orkhan Nagiyev*



*Rüxsarə Əlizadə, Rukhsara Alizade*

## "ELEKTRON TULLANTILAR VƏ QLOBAL TRENDLƏR" MÖVZUSUNDA BEYNƏLXALQ SEMİNAR

## INTERNATIONAL SEMINAR ON "ELECTRONIC WASTE AND GLOBAL TRENDS"

Fevralın 15-də Coğrafiya və ətraf mühit departamentinin təşkulatçılığı ilə Xəzər Universiteti və Çirklənmə və Sağlamlıq Üzrə Qlobal Alyans "Elektron tullantılar və qlobal trendlər" mövzusunda beynəlxalq seminar keçirmişlər. Seminarda Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Səhiyyə Nazirliyi, Energetika Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi, universitetlər və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri iştirak etmişlər. Tədbirdə beynəlxalq ekspertlər, o cümlədən, BMT-nin Təlim və Maarifləndirmə Təşkilatının eksperti Kornelis Peter Balde`nin çıxışları dinlənilmişdir.

On February 15, under the organization of the Department of Geography and Environment, Khazar University and the Global Alliance on Health and Pollution held an international seminar on "Electronic waste and global trends". Representatives of the Ministry of Ecology and Natural Resources, Ministry of Economy, Ministry of Emergency Situations, Ministry of Health, Ministry of Energy, Food Safety Agency, universities and civil society institutes participated in the seminar. At the event, the speeches of international experts, including the expert of the UN Training and Education Organization, Cornelis Peter Balde, were heard.

## BAKIXANOV HAZIRLIQ MƏRKƏZİNİN DİNLƏYİCİLƏRİ VƏ MÜƏLLİM KOLLEKTİVİ XƏZƏR UNİVERSİTETİNDƏ

## STUDENTS AND TEACHING STAFF OF BAKIKHANOV PREPARATION CENTER AT KHAZAR UNIVERSITY

Fevralın 16-da Bakıxanov Hazırlıq Mərkəzinin dinləyiciləri və müəllim kollektivi ilə Xəzər Universitetində görüş keçirilmişdir. İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli giriş sözü ilə çıxış edib.

Universitetin psixologiya departamentinin koordinatoru Mələk Kərimova vaxtın idarə edilməsi, imtahan prosesində həyəcanın aradan qaldırılması və səmərəli çalışma metodları ilə bağlı seminar keçirmiş və abituriyentlərin suallarını cavablandırmışdır.

Sonda universitetin əməkdaşı Ülvi Babasoy Xəzər Universiteti haqda təqdimatla çıxış etmişdir.

On February 16, 2023, a meeting was held at Khazar University with the students and teaching staff of Bakikhanov Preparatory Center. Alovsat Amirbeyli, director of Public Relations and Media, gave an introductory speech.

Malak Karimova, the coordinator of the Psychology department of the university, conducted a seminar on time management, eliminating anxiety during the exam process, and effective work methods and answered the enrolees' questions.

In the end, Ulvi Babasoy, the staff member of the university, made a presentation about Khazar University.

## "RENESANS CONSULTING OY" ŞİRKƏTİNİN İCRAÇI MƏSLƏHƏTÇİSİ SAİD IRANDOUST`UN XƏZƏR UNİVERSİTETİNDƏ SEMİNARLARI

## SEMINARS BY SAID IRANDOUST, EXECUTIVE CONSULTANT OF "RENESANS CONSULTING OY" COMPANY, AT KHAZAR UNIVERSITY



*Said Irandoust*



Fevralın 20 və 27-də Finlandiyanın "Renesans Consulting Oy" şirkətinin Ali təhsilin inkişafı və beynəlmiləlləşmə üzrə İcraçı məsləhətçisi olan Said Irandoust`un Xəzər Universitetində ardıcıl olaraq, "Öyrətmə və Öyrənmənin Qiymətləndirilməsi: bu, vahid bir prosesdir" , "Ali təhsilin transformasiyası, əsas performans göstəriciləri" adlı iki seminarı keçirilmişdir.

Seminarlarda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik . Hamlet İsaxanlı, universitetin rektoru dosent İradə Xəlilova, prorektorlar, fakültə dekanları və departament müdirləri, əməkdaşlar iştirak etmişlər.

Seminarlardan sonra Said Irandoust və rəhbərlik nümayəndələrinin qeyri-rəsmi formada yığıncağı da olmuşdur.

On February 20 and 27, Said Irandoust, executive consultant for the development and internationalization of higher education of the Finnish company "Renesans Consulting Oy", conducted two seminars at Khazar University, entitled "Evaluating Teaching and Learning: a Process, not a single Moment", "Higher Education Transformation, the Key Performance Indicators".

Seminars were attended by the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, rector of the university, associate professor Irada Khalilova, vice-rectors, faculty deans and department heads, employees.

After the seminars, Said Irandoust and administrative representatives had an informal meeting.





*İradə Xəlilova*

*Irada Khalilova*



*Səidə Şərifova*




## “KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES” JURNALININ YENİ NÖMRƏSİ ÇAPDAN ÇIXIB

“Khazar Journal of Humanities and Social Sciences” (“Xəzər Humanitar və Sosial Elmlər Jurnalı”) jurnalının yeni nömrəsi (Cild 25, №3, 2022) Xəzər Universitetinin nəşriyyatında çapdan çıxmışdır. Yeni nömrəyə daxil olan məqalələr ədəbiyyat, dil, təhsil və fəlsəfə sahələrinə aiddir. Məqalələrin tam versiyaları ilə burada tanış ola bilərsiniz: https://jhss-khazar.org/

Jurnalın yeni nömrəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının “Braveman Koroghlu and Translation of Epic as a Factor of Cross-lingual and Cross-cultural Transfers” (“Cəsur Koroğlu və dastanın tərcüməsi dillərarası və mədəniyyətlərarası yayılma faktoru kimi”) adlı məqaləsi də çap olunmuşdur.

Sizi“Khazar Journal of Humanities and Social Sciences” yurnalını oxumağa, öz elmi nəşrlərinizdə onun məqalələrindən sitatlar verməyə və çap etdirmək üçün keyfiyyətli və orijinal məqalələrinizi bizə göndərməyə dəvət edirik (hazırda üstünlük verilən sahələr: təhsil, dil, linqvistika, ədəbiyyat, beynəlxalq münasibətlər və siyasi elmlər). Daha ətraflı məlumat üçün: https://jhss-khazar.org/author-guidelines/

## THE NEW ISSUE OF "KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES" PUBLISHED

The new issue (Vol. 25, 3rd Issue, 2022) of “Khazar Journal of Humanities and Social Sciences” has been released. The published articles of this issue are from Literature, Language, Education and Philosophy. You can read the full articles here: https://jhss-khazar.org/

In this new issue, professor,academician Hamlet Isakhanli, the founder of Khazar University and the chairman of its Board of Directors and Trustees published an article titled "Braveman Koroghlu and Translation of Epic as a Factor of Cross-lingual and Cross-cultural Transfers".

We encourage you to read KJHSS, cite from its publications, and submit your quality and original research papers for possible publication (the priority fields for now are Education, Language/ Linguistics/Literature, IR &Political Science). For more information about submissions, please, see: https://jhss-khazar.org/author-guidelines/

## DEPARTAMENT MÜDİRİNİN HƏMMÜƏLLİFİ OLDUĞU DƏRSLİK ÇAP OLUNUB




Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasovun həmmüəllifi olduğu "Bərpa olunan energi ehtiyatlarından isitfadəyə giriş" adlı dərslik BP-nin maliyyə yardımı ilə çap olunmuşdur.

Dərs vəsaiti Bakı Ali Neft Məktəbi (BANM) və Xəzər Universitetinin birgə əməyinin məhsuludur və kitabda bu barədə qeyd edilmişdir.

Digər həmmüəllif BANM əməkdaşı Elmar Qasımovdur.

Həm dərslik, həm də eyni adlı proqram Elm və Təhsil Nazirliyinin qrifini almışdır.

## A TEXTBOOK CO-AUTHORED BY THE DEPARTMENT HEAD PUBLISHED

The textbook "Introduction to the use of renewable energy resources" co-authored by Rovshan Abbasov, head of the Geography and Environment Department, was published with the financial assistance of BP.

The textbook is a product of the joint work of Baku Higher Oil School (BHOS) and Khazar University, and it is mentioned in the book.

Another co-author is the staff member of BHOS Elmar Gasimov.

Both the textbook and the program of the same name received the seal of the Ministry of Science and




## "XƏZƏR"İN MÜƏLLİMİNİN MƏQALƏSİ "FİLOLOGİYA MƏSƏLƏLƏRİ" JURNALINDA

Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Elza İsmayılovanın məqaləsi "Filologiya məsələləri" jurnalında "Koroğlu" dastanında Kosa Səfər (Azərbaycan və Türkiyə variantları əsasında)" adlı məqaləsi "Filologiya məsələləri" jurnalındadərc edilmişdir (№ 1, 2023, s. 337-349).

Məqalədə qaynaqlar əsasında qeyd edilir ki, Cəlalilər dövrünün salnamələrində Dəli Həsən, Giziroğlu Mustafa bəy, Tanrıtanımaz və başqaları kimi Koroğlunun adlı dəlilərindən olan Kosa Səfər də bir bölükbaşı və uydurma şəxs deyil, gerçəkdən yaşamış Cəlali qulduru olmuşdur. Eyni zamanda, müxtəlif faktlar əsasında belə qənaətə gəlinir ki, Kosa Səfər də Anadoluda baş vermiş Cəlali üsyanlarında iştirak etmiş, Osmanlı - Səfəvi arasında baş vermiş Sufiyan döyüşündə əsir düşmüş və I Şah Abbasın əmri ilə öldürülmüşdür.

## AN ARTICLE BY KHAZAR UNIVERSITY FACULTY MEMBER IN "PHILOLOGICAL ISSUES" JOURNAL

The article by Elza Ismayilova, the lecturer of the Department of Languages and Literatures of Khazar University, was published in the " Philological issues" journal entitled "Kosa Safar in the Koroghlu epic (based on Azerbaijani and Turkish versions)" in the journal of " Philological issues " (No. 1, 2023, pp. 337-349).

In the article, based on the sources, it is noted that Kosa Safar, one of Koroglu's young men( deli), like Deli Hasan, Giziroglu Mustafa Bey, Tanrıtanımaz and others, was not a bandit and a fictitious person, but a real-life Jalali bandit. At the same time, on the basis of various facts, it is concluded that Kosa Safar also participated in the Jalali rebellions that took place in Anatolia, was captured in the Sufiyan battle that took place between the Ottomans and the Safavids, and was killed by the order of Shah Abbas I.



*Elmas Dönmez, Osman Açar, Eray Acar*
*Elmas Donmez, Osman Achar, Eray Acar*

## DUMLUPİNAR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

## REPRESENTATIVES OF DUMLUPINAR UNIVERSITY AT KHAZAR UNIVERSITY

Fevralın 13-17-də Türkiyənin Kütahya şəhərində yerləşən Dumlupınar Universitetinin müəllimi və Beynəlxalq əlaqələr ofisinin əməkdaşı Elmas Dönmez, İqtisadiyyat və menecment fakültəsinin dekan müavini Doç. Dr. Eray Acar və Təhsil fakültəsinin müəllimi Osman Açar`dan ibarət nümayəndə heyəti Erasmus+ İşçi Heyətinin Mobilliyi Mübadilə Proqramı (Erasmus+ KA107\171) çərçivəsində Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsi, İqtisadiyyat və menecment fakültəsi və Beynəlxalq əlaqələr ofisi tərəfindən qəbul edildi.

Proqramın ilk günü Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Kitabxana İnformasiya Mərkəzinin direktoru Tat-

On February 13-17, a delegation from Dumlupinar University located in Kutahya, Türkiye, consisting of Elmas Donmez, the lecturer of the University and an employee of the International Relations Office, Assoc. Dr. Eray Acar, deputy dean of the Faculty of Economics and Management, and, Osman Achar, the lecturer of the Faculty of Education visited the School of Humanities, Education and Social Sciences, the School of Economics and Management and the International Relations Office of Khazar University within the Erasmus+ Staff Mobility Exchange Program (Erasmus+ KA107\171).

On the first day of the program, Vlad Vernygora, vice-rector for International Relations, Alovsat Amirbeyli, director of Public Relations and Media, Jeyhun Mammadov, dean of the School of Economics and Management, Tatyana Zaytseva, director of the Library Information Center (LIC),






*Vlad Vernygora*

yana Zaytseva, KİM-in direktor müavini Aytac Misgərli, Kimya mühəndisliyi departamentinin koordinatoru Rəsul Muradi, Beynəlxalq əlaqələr ofisinin koordinatorları Hüseyn Əliyev və Fatimə Vəliyevanın, həmçinin digər əməkdaşların iştirakı ilə türkiyəli professor-müəllim heyəti ilə tanışlıq görüşü keçirildi. Türkiyədə baş verən zəlzələ nəticəsində həlak olanların xatirəsi sükutla yad edildi. Görüşdə Vlad Vernygora Xəzər Universiteti

*(Ardı səh.74-də)*

Aytaj Misgarli, deputy director of the LIC, Rasoul Moradi, coordinator of the Chemical Engineering Department , Huseyn Aliyev and Fatima Valiyeva, the coordinators of the International Relations office, as well as other employees, had an introductory meeting with the Turkish teaching staff. The memory of those who died in the earthquake that hit Türkiye was commemorated in silence. At the meeting, Vlad Vernygora gave detailed information about Khazar

*(To be continued page 74)*



*Fərİdə Tatardar*
*Farida Tatardar*



haqqında geniş məlumat verdi. Dumlupinar Universitetinin nümayəndələri universitet haqqında videoçarx nümayiş etdilər.

Proqrama uyğun olaraq qonaqlar Universitetin Kitabxana İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli tərəfindən mərkəzin fəaliyyəti ilə tanış oldular. İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli qonaqlara Nailəxanım Mədəniyyət Mərkəzində Nailəxanım İsayevanın həyat və fəaliyyətini əks etdirən eksponatlar haqqında ətraflı məlumat verdi. Sonra Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar qonaqları departament və Nanotexnologiya laboratoriyasının fəaliyyəti ilə tanış etdi

Proqramın ikinci günündə Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora tərəfindən "Ali təhsil müəssisələrində beynəlmiləlləşmə" mövzusunda vörkşop keçirilmişdir. İqtisadiyyat və menecment fakültəsində dekan Ceyhun Məmmədov fakültənin fəaliyyəti haqqında məlumat vermiş və iki universitet arasında departamentlərarası əməkdaşlıq istiqamətində danışıqlar aparmışdır.

*(Ardı səh.75-də)*

University. Representatives of Dumlupinar University demonstrated a video about the university.

According to the program, the guests were introduced to the activities of the University's Library Information Center by Aytac Misgarli, the deputy director of the Center. Public Relations and Media director Alovsat Amirbeyli gave detailed information to the guests about the exhibits reflecting the life and activities of Nailekhanim Isayeva at the Nailekhanim Cultural Center.

Then the head of Physics and Electronics Department, Farida Tatardar, introduced the guests to the activities of the department and Nanotechnology laboratory.

On the second day of the program, a workshop on "Internationalization in Higher Education Institutions" was held by Vlad Vernygora, vice-rector for International Relations.

Dean of the School of Economics and Management, Jeyhun Mammadov, gave information about the school's activities and held negotiations in the direction of interdepartmental cooperation between the two universities.

*(To be continued page 75)*

Qonaqlar Humanitar, təhsil və sosial elmlər fakültəsində olmuş, dekan Elza Səmədova fakültənin fəaliyyət istiqamətləri haqqında məlumat vermiş və əməkdaşlıq istiqamətində danışıqlar aparmışdır. Beynəlxalq əlaqələr ofisi ilə də tanış olan nümayəndə heyətinə ofisin koordinatorları ofis və onun fəaliyyəti haqqında məlumat vermişlər.

Fevralın 14-də qonaqlar şəhid leytenant Murad Nağıyevin Anım Gününə həsr olunmuş tədbirdə iştirak etdilər. Sonra "Şəhidlər Xiyabanı"nı, "Bakı Türk şəhidliyi"ni ziyarət etdilər, "Dağüstü Park" və "Alov qüllələri"ni seyr etdilər.

Səfərin son günü Dumlupinar Universitetinin nümayəndə heyəti Xəzər Universitetinin Siyasi Elmlər və fəlsəfə departamentinin Niderlandın Qroningen Universiteti ilə birgə təşkil etdiyi "Aİ-nin şərq tərəfdaşlığından Aİ-nin Mərkəzi Asiya siyasətinə: davamlılıq və dəyişiklik" adlı beynəlxalq konfransda iştirak etdilər. Sonra "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda ekskursiyada oldular.

Proqramın sonunda nümayəndə heyətinə sertifikat və hədiyyə təqdim edilmişdir.

The guests visited the School of Humanities, Education and Social Sciences and the dean Elza Samadova gave information about the activities of the school and held negotiations in the direction of cooperation. The coordinators of the International relations office gave information about the office and its activities to the representative.

On February 14, the guests took part in the event dedicated to the Memorial Day of martyr Lieutenant Murad Nagiyev. Then they visited "Alley of Martyrs", " Baku Turkish Martyrs' Memorial", got acquainted with "Highland Park" and "Flame Towers".

On the last day of the visit, the delegation of Dumlupinar University participated in the international conference "From the Eastern Partnership of the EU to the Central Asian Policy of the EU: Continuity and Change" organized by the Department of Political Sciences and Philosophy of Khazar University in cooperation with the University of Groningen in the Netherlands. Then they went on an excursion to the "Ateshgah Temple" State Historical-Architectural Reserve.

At the end of the program, a certificate and a gift were presented to the delegation.



# "İQTİSADÇI" TƏLƏBƏ İNKİŞAF KLUBUNUN İLK TƏDBİRİ

# THE FIRST EVENT OF "ECONOMIST" STUDENT DEVELOPMENT CLUB

Fevralın 20-də Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin nəzdində yaradılmış "İqtisadçı" Tələbə İnkişaf Klubunun ilk tədbiri keçirilmişdir. Tədbirdə çıxış edən klubun sədri, İqtisadiyyat və menecment departamentinin müəllimi Həsən Rəhimli tələbələrin asudə vaxtının səmərəli təşkili və şəxsi inkişafları üçün yaradılmış imkanlara görə İqtidiyyat və menecment fakültəsinə, dekan Dr. Ceyhun Məmmədova öz təşəkkürünü bildirdi.

O, klubun yaradılmasının səbəblərindən danışaraq qeyd etdi ki, klubun əsas məqsədi elmi və idarəetmə bacarıqlara malik tələbələri bir araya gətirərək onların həm bir-birilə, həm professor-müəllim heyəti ilə, həm də işgüzar sferanın nümayəndələri ilə əməkdaşlığını təşkil etmək, xüsusən, tələbələrdə iqtisadi elmi tədqiqat vərdişlərinin, analitik bacarıqların, tənqidi təfəkkürün formalaşmasına, həm də iqtisadiyyat ilə əlaqəli digər sosial elmlər üzrə zəruri biliklərin artırılmasına yardımın göstərilməsindən ibarətdir.

Klubun ilk tədbirinə qonaq mühazirəçi qismində dəvət edilmiş "İqtisadi Təhlil İnstitutu"nun rəhbəri, iqtisadçı ekspert Məmməd Talıblı "İqtisadçı obrazı" mövzusunda çıxış etdi. Məmməd Talıblı müasir dövrdə iqtisadçı peşəsinin əhəmiyyətindən, iqtisadçı olmağın məsuliyyətindən, iqtisadçının əsas peşəkar xüsusiyyətlərindən, iqtisadçı olmaq üçün zəruri olan bilik və bacarıqlardan danışaraq ideal iqtisadçı obrazının təsvirini verməyə çalışdı. Həmçinin, iqtisadçı ekspert görkəmli iqtisadçı alimlərin fikirlərinə istinadla qeyd etdi ki, peşəkar iqtisadçı olmaq üçün iqtisad elmləri sahəsinin konkret bir istiqaməti üzrə dar ixtisaslaşma ilə bərabər, iqtisadçının iqtisadi proseslərin dərin qatlarını anlamaq üçün fəlsəfi, sosioloji, siyasi, psixoloji, tarixi və riyazi bilikləri mürəkkəb kombinasiyada birləşdirməyi bacarması da çox vacibdir. İnteraktiv üsulla keçirilmiş görüşdə iqtisadçı peşəsinə müxtəlif sosial qrupların fərqli baxışları müzakirə edildi. Klub üzvü olan tələbələr də mövzu ilə bağlı öz fikir və mülahizələrini bildirdilər, həmçinin ekspertə suallarını verdilər.

Qeyd edək ki, "İqtisadçı" Tələbə İnkişaf Klubunun hər ay müxtəlif formatda (ustad dərsi, təlim, debat, kitab müzakirəsi, disput, yarışma) tədbirlərin keçirilməsi planlaşdırılır.

On February 20, the first event of the "Economist" Student Development Club established under the School of Economics and Management of Khazar University was held.

Speaking at the event, the chairman of the club, the lecturer of the Department of Economics and Management, Hasan Rahimli, expressed his gratitude to the School of Economics and Management, Dean Dr. Jeyhun Mammadov, for the opportunities created for the effective organization of students' free time and personal development. Speaking about the reasons for the creation of the club, he noted that the main goal of the club is to bring together students with scientific and management skills and organize their cooperation with each other, with professors and teachers, and with representatives of the business sphere, as well as to help students develop economic scientific research habits, analytical skills, and critical thinking, to increase the necessary knowledge of other social sciences related to economics.

The head of the "Economic Analysis Institute", economist expert Mammad Talibli, who was invited to the first event of the club as a guest lecturer, gave a speech on "Economist image". Mammad Talibli tried to describe the image of an ideal economist by talking about the importance of the economist profession in modern times, the responsibility of being an economist, the main professional characteristics of an economist, the knowledge and skills necessary to become an economist.

Also, the expert economist, referring to the opinions of prominent economists, noted that in order to become a professional economist, along with a narrow specialization in a particular area of economic science, an economist needs a complex combination of philosophical, sociological, political, psychological, historical and mathematical knowledge to understand the deep layers of economic processes, it is also very important to be able to combine them. At the interactive meeting, different views of different social groups on the profession of economist were discussed. Students who are members of the club also expressed their views on the topic, and also asked questions to the expert.

Note that the "Economist" Student Development Club is planning to hold events in various formats (master class, training, debate, book discussion, dispute, competition) every month.

# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ AZƏRBAYCAN VƏ TÜRKİYƏ TELEVİZİYALARINDA

# HEAD OF HISTORY AND ARCHEOLOGY DEPARTMENT ON AZERBAIJANI AND TURKISH TELEVISION

Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu 2023-cü il fevralın 10-14-də *AZTV, arb24, baku tv* və Türkiyənin Anadolu Agentliyinin proqramlarına qonaq olaraq, Türkiyədəki dəhşətli zəlzələdən zərər görən insanlara Azərbaycan xalqının göstərdiyi qardaşlıq yardımlarından bəhs etmiş, XX əsrin əvvəllərində Anadolu və Azərbaycan arasında həmrəylik və yardımlaşma fəaliyyətlərinin tarixi, "Qardaş köməyi" devizi altında edilən yardımlar haqqında da məlumat vermişdir.

## "QARDAŞ KÖMƏYİ" PLATFORMASININ TƏMSİLÇİSİ TÜRKİYƏNİN ZƏLZƏLƏ BÖLGƏLƏRİNDƏ

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu Azərbaycanda bir çox cəmiyyət və QHT- lərin bir araya gələrək, Türkiyədəki dağıdıcı zəlzələdən zərər görən insanlara yardım etmək üçün təsis etdikləri "Qardaş köməyi" platformasının təmsilçisi kimi 2023-cü il fevralın 20-23-də zəlzələ bölgələri Hatay, Malatya, Elbistan, Kahramanmaraş və Adyamanıda olmuşdur.

Departament müdirinin də içində yer aldığı heyət səfər zamanı Türkiyənin Daxili İşlər naziri Süleyman Soylu başda olmaqla bölgədə vəzifə icra edən valilər, bələdiyə başqanları və AFAD rəhbərləri ilə görüşmüş, dövlət adamları, media nümayəndələri və zəlzələdən zərər çəkən insanlara Azərbaycan-Türkiyə qardaşlığı, Azərbaycan xalqının və dövlətinin zəlzələnin ilk saatlarından etibarən zəlzələnin nəticələrinin ortadan qaldırılması üçün qardaşlıq ruhuyla səfərbər olması barədə məlumat verilmişdir. Türkiyədəykən T. Nüsrətoğlu Türk mediasına XX əsrin əvvəllərində Azərbaycan ziyalılarının, ictimai xadimlərinin qurduğu cəmiyyətlərin də Balkan və Birinci Dünya müharibələri zamanı Anadoludakı soydaşlarımıza yardım zamanı əsas şüar olan "Qardaş köməyi" haqqında da danışmışdır.

On February 10-14, Telman Nusratoghlu, the head of the History and Archeology Department, was a guest on the programs of AZTV, arb24, baku TV and Türkiye's Anadolu Agency, and talked about the fraternal aid provided by the people of Azerbaijan to those who affected by the terrible earthquake in Türkiye. He also provided information about the history of solidarity and aid activities between Anatolia and Azerbaijan at the beginning of the 20th century, and about the assistance provided under the motto "Fraternal Aid".

## HEAD OF HISTORY AND ARCHEOLOGY DEPARTMENT VISITS EARTHQUAKE-HIT REGIONS OF TÜRKIYE AS A REPRESENTATIVE OF THE "FRATERNAL AID" PLATFORM

On February 20-23, Telman Nusratoghlu, head of the History and Archeology Department, Khazar University, visited Hatay,Malatya, Kahramanmarash and Adiyaman as a representative of the "Fraternal aid" platform founded by many societies and NGOs in Azerbaijan to help people affected by the devastating earthquake in Türkiye.

During the visit, the delegation including the head of the department, met with the Minister of Internal Affairs of Türkiye Suleyman Soylu,the acting governors, heads of municipalities and heads of AFAD, and informed state officials, media representatives and people affected by the earthquake about Azerbaijan-Türkiye brotherhood, the mobilization of the people and the state of Azerbaijan in the spirit of brotherhood to eliminate the consequences of the earthquake from the first hours of the earthquake. While in Turkey, T. Nusratoghlu told the Turkish media about "Fraternal help" which was the main motto of societies founded by Azerbaijani intellectuals and public figures in the beginning of the 20th century and helping our compatriots in Anatolia during the Balkan and First World Wars.



# DÜNYANIN ƏN TƏHLÜKƏLİ ŞƏHƏRİ MƏLUM OLDU

Meksikanın qərbində yerləşən eyniadlı ştatın paytaxtı Kolima 2022-ci ildə dünyanın ən təhlükəli şəhəri olub.

Ölkənin İctimai Təhlükəsizlik və Cinayət Mühakiməsi üzrə Vətəndaş Şurası qeyri-hökumət təşkilatının ekspertləri son reytinqlərində belə qənaətə gəliblər.

Keçən il Kolimada adam öldürmə nisbəti hər 100.000 sakinə 182 olub.

"Bu, 300 min nəfərdən çox əhalisi olan dünyanın 50 ən təhlükəli şəhərini əhatə edən tədqiqatlara başladığımız 2009-cu ildən bəri üçüncü ən yüksək göstəricidir", - deyə siyahının müəllifləri qeyd ediblər.

Bildirilib ki, rekord 2010-cu ildə Meksikanın Syudad Xuarez şəhərində qeydə alınıb. Həmin ildə şəhərdə 100.000 sakinə 229 qətl düşüb.

Reytinqi tərtib edənlərin fikrincə, dünyanın ən təhlükəli 50 şəhərindən 17-si Meksikada, 10-u Braziliyada yerləşir. ABŞ, Kolumbiya, Cənubi Afrika və Honduras müvafiq olaraq 7, 6, 4 və 2 yaşayış məntəqələri ilə siyahıda təmsil olunub. Avropa və Asiyanın iri şəhərləri siyahıya daxil edilməyib.

**Mənbə: TASS**

*https://moderator.az/az/maraqli/602139/dunyanin-en-tehlukeli-seheri-melum-oldu/*

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. **http://e.dunyaschool.az/sagirdqebulu**

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Radiotexnika və telekommunikasiya mühəndisliyi
* Elektrik və elektronika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informasiya müəllimliyi
* Fizika müəllimliyi
* Memarlıq

### 2 QRUP

* Mühasibat
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm işinin təşkili
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi
* Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya
* Baytarlıq təbabəti

### 5 QRUP

* Dizayn
* Təsviri incəsənət müəllimliyi